Masallı Olimpiya İdman Kompleksində keçirilən güləş üzrə məktəblilərarası zona yarışında 6 rayonun komandası birincilik uğrunda mübarizə aparıb. Sərbəst və yunan-roma güləş növü üzrə qalib adı uğrunda mübarizəyə 100 nəfərə yaxın idmançı qatılıb.

Komanda hesabında idmanın sərbəst güləş növü üzrə 1-ci yeri Masallı, 2-ci yeri Lənkəran, 3-cü yeri Astara, yunan-roma güləş növü üzrə isə 1-ci yeri Lənkəran, 2-ci yeri Masallı, 3-cü yeri Astara rayonunun komandaları tutub.

Daha bir idman yarışı Masallı rayonunda yerləşən Regional Taekvondo Mərkəzində baş tutub. Burada Masallı, Lənkəran, Astara, Yardımlı, Lerik, Cəlilabad və Biləsuvar rayonunu təmsil edən 100 nəfərə yaxın qız və oğlan taekvondoçu qüvvəsini sınayıb.

Komanda hesabında 1-ci yeri Masallı, 2-ci yeri Lənkəran, 3-cü yeri Lerik rayonunun komandaları tutub.

Yarışların açılış mərasimlərində Təhsil Nazirliyinin, yerli icra orqanlarının və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Yarışların qalibləri Təhsil Nazirliyinin diplom və medalları ilə mükafatlandırılıb.